**Şəhidlər**

Azərbaycan, ulu Vətən
Səni sevdim mən əzəldən.
Söylə nədən, torpağının hər qarışı
Səndən ötrü candan keçən
Şəhidlərin məzar daşı.
Kaş ki, mən də sənə qurban olaydım
Şəhid olub,
əbədilik, ölməzlik qazanaydım.

Siz ey mənəm deyən bəy ərənlər,
Bu müqəddəs torpağın
Önündə baş əyənlər.
Siz ey dərya qədər, ümman qədər,
Sevgi dolu ürəklər
Şəhid olub canlarından keçənlər.
Siz şəhid oldunuz, siz ölmədiniz,
Siz can verib, azadlıq gətirdiniz.

Azadlığın adı gözəl, özü şirin,
Xatirəsi əbədidir şəhidlərin.
Şəhidlər can verdilər
Həqiqətin sorağını gətirdilər.
Onlar şəhid oldular
Azadlığın məşəlini yandırdılar.
Vətən şəhidsiz olmaz,
Vətən heç vaxt şəhidləri unutmaz.

Sən ey şəhid anası, gəl uca tut başını,
Sil gözünün yaşını.
Sən ey şəhid anası, gəl ağlama
Şəhid olan oğluna,
Şəhidlər ölməyibdir,
Şəhidlər diridirlər.
Ulu tanrı yanından
Cənnəti seyr edirlər.

Sadiq Ə. Şəhidlər : şeir // Savalan. - 2007. - 19-22 yanvar. - S.1.